Ədəbiyyat QƏZETİ



Səhər Əhməd

## Qatil də Allah quludur

Gücü gizlətmək də sirr saxlamaq kimi çətindir.
* * *
Təkrar biliyin anası deyil, balasıdır.
* * *
Ümid -pul kimi bir şeydir.
* * *
Özünü cilovlama, eybi yox, qoy nadanlar səni
"kobud" adlandırsın.
* * *
Xatirələrin yaşadığı yerlər köhnə tanışlara bənzər,
hərdən yadına ya bir dalan düşər,
ya bir kitabxana...
* * *
Yaşamaq-susamaqdır,
ancaq heç ölüm də su deyil.
* * *
Əgər yaddaşın qarışıqdırsa, xatirələrin köhnəlibsə,
acı dadırsa, onları heyifsilənmədən at.
Yoxsul və təmiz ev daha rahatdır,
nəinki zəngin və səliqəsiz ev.
* * *
Kiminçünsə darıxa bilirsənsə, bəsindir,
qoy sənin üçün heç darıxmasınlar.
* * *
Ən iddialı adamlar ən adi adamlar olur.
* * *
Dostun yoxdursa, özündən küs,
sədaqətin yoxdur demək.
* * *
Yer göyün səhnəsidir; epizodik rolları oynayanlara acıyıram. Onlar yalnız dramatizmi bir qədər gücləndirmək üçün mövcuddurlar.
* * *
Nadanlar haqda düşünmək
onlara uduzmaq deməkdir.
* * *
Mövsümlərin dəyişməsi adamların
özünü xatırlaması üçündür.
* * *
Zəhmli adamlar pisliyi əzbər bilən adamlardır.
* * *
Dilənçilərə acımaq bizim borcumuzdur,
dəxli yoxdur onlar acdılar, ya yox,
dilənçi olmaq ac olmaqdan daha acınacaqlıdır.
* * *

Necə xoşbəxt görünür hər kəs öz tələsində.
* * *
Bizə zamanı tanıtmadılar,
əbədiyyət barədə nağıllar yanlış.
* * *
Piyadalar ən yaxşı halda vəzirə çevrilər, şaha yox.
* * *
Gecikmiş məğlubiyyət qocalıqdakı ölüm kimidir,
adamı elə də incitmir.
* * *
Bir ovuc Vətən torpağı satılır bir udum
qürbət havasına...

* * *
Bir dəfə gerçəkdən sevmiş adam xəstəliyə
peyvənd olunmuş kimidi,
o ya sevgiyə bir daha yoluxmaz,
ya da çox asan keçirər.
* * *
"Olmaz" bizim keçdiyimiz ilk dərsdir.
* * *
O kəslər həmişə hamıdan hər şey umurlar ki,
özləri heç vaxt heç kim üçün heç nə etməyiblər.
* * *
Kim nə qədər xoşbəxt edə bilirsə,
bir o qədər xoşbəxtdir.
* * *
Hamı filosof ola bilməz,
amma hər kəsin öz fəlsəfəsi olmalıdır.
* * *
Oxuduğun kitablar bitəndə əsl həyat başlayır.
* * *
Tanış olmağa kimsə yox, adamların hamısı tanış.
* * *
Hər şeyi bilmək də heç nə
bilməmək kimi yorucudur.
* * *
Əzilən tərəf olmaq xoş deyil,
əzən tərəf olmaq heç xoş deyil.
* * *
Hər şey cox primitiv şəkildə qarışıq,
çox yüksək səviyyədə sadə və aydın.
* * *
Dəlilərə gülüb keçən ağılsızlar...
* * *
Yaşlı ağaclara da bahar gələr,
amma onların umidləri bir daha göyərməz.
* * *
Nə mənası, oturdun, ya ayaqda qaldın, yerin rahat oldu, ya narahat, onsuz da gec-tez düşəcək və hər şeyi unudacaqsan.
* * *
Yenə harasa gedir, hardansa qayıdır adamlar.
* * *
...Tarixin bizə verdiyi ən böyük dərs ibrət dərsidir.
Kim deyər, bizim keçən dərsimiz nə olmuşdur?!
* * *
Yaxşı ki, hər yerdə zaman var,
onunla ölməz görünür adamlar.
* * *
Yalnız ağılla yaşamaq ağılsızlıqdır.
* * *
Daim güclülərin yanında olmaq qəddarlıq,
daim zəiflərin yanında olmaq qorxaqlıqdı.
* * *
Ağıl da silah kimidir, ancaq döyüşməyə yarayır.
* * *
Nə vaxtsa insanlara mənsəblərinə görə deyil,
məqsədlərinə görə qiymət veriləcək.
* * *
Görəsən, qorxunun o tərəfində nə var, şürun üsyanından sonra açılan mənzərə necədir,
bax, biz bunu heç vaxt bilməyəcəyik.
* * *
Bir kitaba son qoyan bir sətir ayrılıqlar.
* * *
Həyat müharibədirsə, ailə sığınacaqdır.
* * *
Bütün vergüllərin sonunda nöqtə.
* * *
Hər kəsi anladım, fağır adamlardan savayı.
* * *
Vaxt gələcək, insanlara mənsəblərinə görə deyil,
məqsədlərinə görə dəyər veriləcək.